*Elçin ƏHMƏDOV*
***Pedaqoji elmlər namizədi, müəllim***

# UCALIQ RƏMZİ

**"Başqaları üçün işıq verən şüa olub özünə də işıq saçmaq. Budur insanın nail olacağı ən yüksək xoşbəxtlik!"**
**Bəxtiyar Vahabzadə**

Abuzər müəllim Azərbaycanın elm, təhsil, mədəniyyət, ictimai siyasi həyatında sayılıb-seçilən, yüksək insani dəyərlərə malik olan bir ziyalıdır. Onun insani keyfiyyətləri bəşər övladı üçün ölçülüb-biçilən bütün xüsusiyyətlərlə üst-üstə düşür. Abuzər müəllim tələbəlikdən akademiklik zirvəsinədək böyük elmi yol keçmişdir. Bu yolda o, daim nailiyyətlər qazanmaqla yanaşı, insanlara xeyirxahlıq, cəmiyyətə isə fayda vermişdir. Abuzər müəllimin həyatının 50 ili universitetlə bağlı olmuşdur. Universitet həyatının müxtəlif sahələrində çalışmaqla yanaşı ali kitabxanaçılıq təhsilinin yaranmasında və təkmilləşməsində əhəmiyyətli rol oynamışdır.

Abuzər müəllimin hər bir insana qayğı ilə yanaşması, onun formalaşmasında düzgün yol göstərməsi, gənc müəllimlərlə müntəzəm işi onun əsl insan olmasından xəbər verir. Hər bir yaradıcı gənclə fərdi iş aparması, ona məsləhətlər verməsi, vaxtını onlara həsr etməsi, onun elmə, təhsilə, mədəniyyətə marağı ilə bərabər qədim xalqımızın gələcəyinə olan qayğıkeşliyin əsl nümunəsidir. Ulu xalqımızın milli, mənəvi dəyərlərini gənc nəslə həvəslə öyrətməsi, onlara doğru yol göstərməsi onun həyat amalıdır. Əsl alim, tədqiqatçı, müəllim şərəfini vəhdətdə yaşadan, onun qədir-qiymətini bilən, onu bütün ləkələrdən qorumağa çalışan akademik Abuzər Xələfov həyata nikbin nəzərlə baxır. Onun həyata baxışlarında müstəqil respublikamızın dünya

birliyində yeri, xalqımızın xoşbəxt gələcəyi, torpaqlarımızın azad olunması kimi prinsipial məsələlər öz əksini tapır. Abuzər müəllimin istər elmi-tədris, istərsə də ictimai-siyasi fəaliyyətində milli ideologiyamızın təşəkkülü və inkişafı önəmli yer tutur. Onun şəxsi keyfiyyətləri həmişə düzgün mövqedə olmasına şərait yaradır. O, nəticə çıxarılacaq hər bir məsələdə ədalətli olmaq, müəllimlərə, tələbələrə, aspirantlara, magistrlərə daim gərəkli olan davranış qaydalarını dərindən bildiyi kimi öyrətməyə çalışmaqla yüksək dəyərlərə malikdir. Abuzər müəllim həm elmdə, həm siyasətdə, həm də ictimai həyatda öz prinsipial mövqeyini nümayiş etdirir, həmsöhbətlərinin nöqsanlarını birbaşa üzə deyir, öz ideyalarını fakt və dəlillərlə sübut edir və bunları əsaslandırır.

Abuzər müəllim görüləcək işin müsbət həllinə çalışan və buna həmişə nail olan insandır. Mən onu şəxsən 18 ildir tanıyıram. Bu müddət ərzində şahid olmuşam ki, öz fəaliyyət sahəsində hansı məsələnin həllinə maraq göstəribsə, o məsələ tam həll olunub.

Professor Abuzər Xələfov doğulub boya-başa çatdığı ulu Göyçə mahalına qəlbən bağlı olan, indi yad əllərdə qalan torpaqlarımızın ağrı-acısını çəkən, Azərbaycanın gələcəyini düşünən ziyalıdır. O, əsl vətəndaş kimi müstəqil ölkəmizdə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, gənc nəslin həqiqi vətənpərvərlər kimi yetişməsi üçün xüsusi fəallıq göstərir.

Başqaları üçün daim xeyirxahlıq etmiş, sağlığında özünə mənəvi heykəl yaratmış bu şəxsiyyət hər cür hörmətə və ehtirama layiqdir. Qarşıdan gələn 70 illik yubileyi münasibətilə hörmətli akademikimizə cansağlığı diləyərək, bundan sonra da layiq olduğu daha yüksək zirvəni fəth etməyi arzulayıram!